**Gasimzade I.I.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.28-40**
**UOT: 342.7**

## Grounds and conditions of legal responsibility for moral damage

**Abstract**: In the article, the basis and conditions of legal responsibility for moral damage reflecting the compensation of moral damage, which is more relevant for the legal system of our state, and the criteria for determining compensation for moral damage were analyzed. The purchasing power of money in circulation was also mentioned as one of the factors influencing the measurement of moral compensation. In determining the compensation, the objective weight of the damage, the elements related to the victim and the culprit constitute the main content of the article.

Determining the amount of moral compensation is important in the case of material compensation of moral values. Since it is not always possible to compensate the moral damage in an exact form, the compensation of the moral damage is in some cases a compensation paid in material form (in the form of money). It is envisaged that compensation of moral damage can be carried out not only in the form of money, but also by placing some duties on that person (for example, refuting false information that harms honor, dignity, business and social reputation, apologizing to the victim).

**Keywords**: fault; civil liability; physical or mental suffering; victim's sentience; compensation; intent and negligence.

### References

1. Constitution of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/897 (in Azerbaijani).

2. Civil Code of the Republic of Azerbaijan (in Azerbaijani). Available at: https://e-qanun.az/framework/1 (in Azerbaijani).

3. Commentary on the Civil Code of the Republic of Azerbaijan (in Azerbaijani).Available at: http://ek.anl.az/lib/item?id=chamo:115136&theme=e-kataloq(in Azerbaijani).

4. Criminal Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46947 (in Azerbaijani).

5. Commentary on the Criminal Code of the Republic of Azerbaijan (in Azerbaijani). Available at: https://seymurhuseynov.home.blog/2019/12/23/cinay%C9%99t-m%C9%99c%C9%99ll%C9%99sinin-xususi-hiss%C9%99sinin-kommentariyasi-pdf/(in Azerbaijani).

6. Civil Procedure Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46945 (in Azerbaijani).

7. Commentary on the Civil Procedure Code of the Republic of Azerbaijan (in Azerbaijani). Available at: http://ek.anl.az/lib/item?id=chamo:115136&theme=e-kataloq (in Azerbaijani).

♦**Gasimzade Ilknur Ilkin** - graduate student of the "Law" Department of the National Aviation Academy (Azerbaijan).E-mail: ilknur.agayeva@bk.ru

8. Decision of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan "On the experience of applying the legislation on the compensation of moral damages by the courts" dated November 3, 2008. Available at: https://e-qanun.az/framework/47303 (in Azerbaijani).

9. Law "On Protection of Population Health" dated June 26, 1997. Available at: https://its.gov.az/uploads/law/38/732555.pdf (in Azerbaijani).

10. Decisions of the Swiss Federal Court. Available at: https://its.gov.az/uploads/law/38/732555.pdf (in Azerbaijani).

11. Decisions of the Supreme Court of Turkey. Available at: https: // www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.2709.pdf (in Turkish).

12. Pinar Chetin. Legal Qualities of Moral Compensation Case and Determination of Compensation Amount in particular. Available at: https://dergipark.org.tr/en/download/article-file/2277808 (in Turkish).

13.Jafarov I.M. Interpretation of the Constitution of the Republic of Azerbaijan. Baku: Legal literature, 2003, 552 p. Available at: https://www.elibrary.az/docs/jurnal/jrn2017_215.pdf(in Azerbaijani).

**Qasımzadə İ.İ.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.28-40**
**UOT: 342.7**

## Mənəvi zərərə görə hüquqi məsuliyyətin əsasları və şərtləri

**Xülasə**: Məqalədə dövlətimizin hüquq sistemi üçün daha çox aktual olan mənəvi zərərin kompensasiyasını əks etdirənmənəvi zərərə görə hüquqi məsuliyyətin əsasları və şərtləri,mənəvi zərərə görə kompensasiyanın ödənilməsi zamanı onun hansı meyarlara uyğun olaraq müəyyən olunması təhlil olunmuşdur. Mənəvi təzminatın ölçülməsinə təsir göstərən amillərdən biri kimi dövriyyədəki pulun alıcılıq qabiliyyəti də qeyd olunmuşdur. Təzminatın müəyyən olunmasında zərərin obyektiv ağırlığı, zərərçəkmiş və təqsirkarla bağlı olan ünsürlər məqalənin əsas məzmununu təşkil edir.

Mənəvi təzminatın miqdarının müəyyənləşdirilməsi mənəvi dəyərlərin maddi formada kompensasiya olunması halında mühüm əhəmiyyət daşıyır. Mənəvi zərərin dəqiq formada kompensasiyası hər zaman mümkün ola bilmədiyindən mənəvi təzminatda zərərin ödənilməsi bəzi hallarda maddi formada (pul formasında) ödənilən kompensasiyadır. Mənəvi zərərin ödənilməsinin yalnız pul şəklində deyil,həmçinin ,həmin şəxsin üzərinə bəzi vəzifələr qoymaq yolu ilə (məsələn, şərəf, ləyaqət, işgüzar və sosial nüfuza zərər vuran yanlış məlumatların təkzib olunması, zərərçəkən şəxsdən üzr istənilməsi) həyata keçirilə biləcəyi nəzərdə tutulmuşdur.

**Açar sözlər:** təqsir; mülki hüquqi məsuliyyət; fiziki və ya mənəvi iztirab; zərərçəkənin hissetmə qabiliyyəti; kompensasiya; təzminat; qəsd və ehtiyatsızlıq.

Mülki hüquqi məsuliyyətin əsası dedikdə zərərçəkən şəxsin subyektiv mülki hüquqlarının pozulmasını təşkil edən hüquqi fakt zərərin mövcudluğu nəzərdə tutulur.Mülki hüquqi

♦**Qasımzadə İlknur İlkin qızı** – Milli Avaiasiya akademiyasının "Hüquq" kafedrasının magistrantı (Azərbaycan). E-mail: ilknur.agayeva@bk.ru

məsuliyyətin şərtləri dedikdə isə qanunda qeyd edilən elə tələblər nəzərdə tutulur ki,bu tələblərə uyğun olaraq zərər vurmaq faktına hüquqi qiymət verilir və məsuliyyət tədbiri şəklində müəyyən sanksiya tətbiq olunur.Mülki Məcəllənin 1096.1-ci maddəsinə əsasən , qeyd edilən şərtlərin dairəsinə aşağıdakıları aid etmək olar:

- ✓ zərərvuranın hüquqazidd,yəni qeyri-hüquqi davranışı,
- ✓ zərərvuranın hüquqazidd davranışı ilə vurulmuş zərər arasında səbəbli əlaqə
- ✓ zərərvuranın təqsiri

Mülki hüquqi məsuliyyətin qeyd etdiyimiz ilk iki şərtindən fərqli olaraq,təqsir subyektiv tələbi iləfərqlənir.Yəni təqsir məsuliyyətin subyektiv şərti hesab edilir.Təqsir mülki hüquqi anlayış hesab olunsa da,onun olub-olmamasının sübutunun zəruriliyi onun mülki-prosessual baxımından da əhəmiyyətə malik olduğuna təsdiq edir [1].

"Təqsir" anlayışı mülki hüquq elmində ən mübahisəli məsələlərdən biri hesab edilir. XX əsrin 30-cu illərinin sonuna kimi mülki hüquq məsuliyyət barəsində doktrinada zərər prinsipi üstün mövqedə olduğu üçün təqsir nəzəriyyəsi zəif inkişaf etmişdi. Bəzi sovet sivilistləri təqsir prinsipini müdafiə etmək üçün müxtəlif fikirlər qeyd etsələr də, bu fikirlər yarımçıq xarakterli idi. Xüsusən vurğulamaq lazımdır ki, K.M.Varşavski tərəfindən 30-cu illərin sonlarında tövsiyə olunurdu ki, həm mülki təqsirin ümumi anlayışı, həm də onların ayrı-ayrı növlərinin xüsusiyyətləri əhatəli formada tədqiq olunsun.

Lakin alimin tövsiyəsi nə qanunvericilik təcrübəsi, nə də sivilistika elmi tərəfindən qəbul olunmadı. İlk dəfə mülki təqsirin ümumi anlayışı 1939-cu ildə X.İ.Şvarts tərəfindən qeyd olunmuşdur. O, təqsiri "fəaliyyət qabiliyyətli vətəndaşın sosialist cəmiyyəti vətəndaşının normal davranışından bu cür kənaraçıxarma və uzaqlaşma "formasında şərh edirdi. 50-ci illərdən etibarən başlayaraq sivilist alimlər təqsirə kriminalistlər kimi anlayış verməyə başlamışdılar. Onlar qeyd etmişdilər ki, təqsir hüquqa zidd davranışa və onun mümkün ola bilən nəticəsinə subyektiv münasibətdir. Fikrimcə, sivilistikada təqsirə cinayət hüquq elmində istifadə edilən anlayışdan istifadə olunması uyğun deyil.

Birinci səbəb odur ki, mülki qanunvericiliyə, əsasən, əgər şəxs özündən asılı olan bütün tədbirləri həyata keçirərsə, ancaq buna baxmayaraq mülki hüquq pozuntusuna yol verilərsə, bu zaman həmin şəxs hüquq pozuntusunu törətməkdə təqsirli hesab edilə bilməz.

İkinci səbəb odur ki, təqsirlilik prezumpsiyası cinayət hüququna yad olduğu halda, mülki hüququn əsas prinsiplərindən biri hesab edilir.

Üçüncü səbəb odur ki, bir qayda olaraq, cinayət hüququnda təqsirin forması, dərəcəsi və yaxud ağırlığı həmişə mühüm əhəmiyyətə malikdir. Mülki hüquqda isə, bir qayda olaraq, məsuliyyət təqsirin dərəcəsi və formasından asılı olmur. Ona görə ki, mülki hüquqi məsuliyyətin əsas və başlıca funksiyası kompensasiya-bərpaedici funksiyadır. Beləliklə, yuxarıda göstərdiyimiz səbəblərdən mülki hüquqda təqsirə cinayət hüquqi anlayış vermək olmaz.

Təqsirin mülki hüquqi anlayışı cinayət hüquqi anlayışından ciddi formada fərqlənsə də, cinayət hüququnda təqsirə yanaşmanın təhlili müqayisə baxımından mühüm əhəmiyyət daşıyır. Cinayət Məcəlləsinin 24.1-ci maddəsinə, əsasən, əməli (hərəkət və ya hərəkətsizliyi) yalnız qəsdən və ya ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli hesab olunur. Təqsir dedikdə şəxsin törətdiyi ictimai təhlükəli əmələvə onun nəticələrinə qəsd və yaxud ehtiyatsızlıq formasında psixi münasibət nəzərdə tutulur. Psixoloji kateqoriya kimi təqsir müxtəlif psixoloji elementlərin məcmusundan ibarət olan müəyyən bir məzmun daşıyır. Təqsirin məzmununun əsasını təşkil edən psixoloji elementlərə şüur və iradə aiddir ki, onlar da psixoloji akt kimi ictimai təhlükəli davranışın

müəyyən əqli və iradəvi tərəflərinin əsasını təşkil edir. Əqli momentin mahiyyəti ondan təşkil edilir ki, insan öz şüurunun köməyi ilə konkret dərketmə anına qədər əldə olunan nəzəri və təcrübi biliklərin əhatəsində olduğu mühitin, həmçinin, həmin mühitdə baş verən hadisələrin mənasını və mahiyyətini başa düşür və həmin hadisələrin dərk edilən tipik əlamətlərinə əsasən bir hadisəni digərindən fərqləndirmək imkanına malik olur. Davranışın irəli tərəfi isə qarşıya qoyulan məqsədə çatmaq üçün üçün əqli və fiziki səylərin istiqamətləndirilməsini özündə əks etdirir. Əgər davranışın əqli momenti ancaq əqli-idrak fəaliyyətindən təşkil edilirsə, iradə və moment həm əqli fəaliyyətdən, həm də əqli fəaliyyətlə idarə olunan fiziki fəaliyyətindən ibarətdir.

Mülki qanunvericilikdə təqsirin növləri qeyd edilməsə də, onun iki forması fərqləndirilir: qəsd və ehtiyatsızlıq. Ehtiyatsızlığın sadə və kobud kimi növləri fərqləndirilsə də, onların məzmunu və normativ aktlarda, nə hüquq ədəbiyyatında, nə də hüquq tətbiqetmə praktikasında açıqlaması qeyd olunmur. İstənilən halda hüquqi nəticələr ehtiyatsızlığın formasından asılıdır, yəni kobud ehtiyatsızlığa yol verildiyi hallarda məsuliyyət daha yüksək olur. Bütün bunlar isə sadə ehtiyatsızlığın mənasına etinasızlığın, kobud ehtiyatsızlığın mənasına isə özünə güvənməyə uyğun gəlməsi qənaətinə gəlməyə imkan verir. Əgər cinayət qanunvericiliyindəki müəyyən anlayışlarla analogiya aparsaq, görərik ki, qəsd dedikdə, şəxsin öz əməlinə elə bir münasibəti başa düşülür ki, bu halda o, əməlinin zərərli nəticələrini əvvəlcədən görür və bilavasitə onun nəticəsini arzulayır,yaxud onun baş verməsini şüurlu şəkildə mümkün hesab edir. Kobud ehtiyatsızlığa yol verildiyi hallarda isə hüquq pozuntusu törədən özünün hüquqazidd davranışının mənfi nəticələrinin mümkünlüyünü əvvəlcədən görür, lakin məsuliyyətsizcəsinə onların baş verməyəcəyini, yaxud qarşısını alacağını düşünür. Sadə ehtiyatsızlıq isə hüquq pozuntusunun öz davranışının zərərli nəticələrini təxmin etmədiyini, lakin təxmin edə bilməli olduğunu və bunu etməli olduğunu nəzərdə tutur. Beləliklə, təqsirin növlərini onun dərəcəsini nəzərə almaqla azalma ardıcıllığı ilə aşağıdakı kimi təsnifləşdirmək mümkündür: qəsd, kobud ehtiyatsızlıq və sadə ehtiyatsızlıq [2].

İstənilən mühafizəedici xarakterli hüquq münasibətində hüquqi məsuliyyət müəyyən olunarkən təqsirin növü mütləq müəyyən olunmalıdır. Ona görə də təqsirin növünü sübutetmə predmetinə aid etməyi təklif edirəm.

Mənəvi zərərə görə kompensasiya haqqında qərar çıxararkən məhkəmə zərərvuran şəxsin təqsirinin dərəcəsini də qeydə almalıdır. Təqsirin dərəcəsinin müəyyən edilməsi isə iş üzrə məhkəmənin düzgün və əsaslandırılmış qərar xarakterik xüsusiyyətləri nəzərə alınmaqla yanaşı, təqsirin növlərinin və onların dərəcəsinin müəyyən edilməsi də əsas şərtlərdən biridir və mütləq xarakterə malikdir.

Mənəvi zərər fiziki və yaxud mənəvi iztirablardan təşkil olduğundan, məntiqi baxımından zərərvuran şəxsin təqsiri zərərçəkən şəxsin keçirdiyi iztirablar əsasında müəyyən edilməlidir. Lakin məhkəmə praktikasına, əsasən, deyə bilərik ki, qanuna zidd hərəkətlər baş verərkən zərərçəkən şəxsin iztirabları istinsa hallarda nəzərə alınır. Zərərvuran şəxs öz əməlinə münasibətdə vurduğu zərərin maddi və kənardan əyani şəkildə başa düşülən iradə ifadəsi əsasında qurur. Zərərçəkən şəxs isə öz tələblərini təqsirin bilavasitə mənəvi zərəri ilə deyil, digər maddi hüquq normalarından irəli gələn elementləri ilə əsaslandırır. Əksər hallarda isə mənəvi zərərə qarşı tam formada etinasızlıq göstərilir. Bütün bunlar bir daha göstərir ki, bu kateqoriyadan olan mülki işlərdə birbaşa təqsirin ümumi şəkildə mövcud olmaması təsəvvürü meydana gəlir. Vurulan mənəvi zərərin dərəcəsi isə maddi xarakterli mübahisələr üzrə təqsirin dərəcəsindən fərqli müəyyən edilir. Lakin belə yanaşma hüquq ədəbiyyatında mübahisə doğurmayan və hüquqtətbiqedici fəaliyyətə uyğunlaşan məsuliyyətin şərtlərinin ayrılıqda müəyyən olunması prinsipinə zidd xarakterə malikdir. Beləliklə,

mənəvi zərər və maddi ziyan eyni əməldən törəyir. Konkret danışılan halda isə ziyan mənəvi zərərlə müşayiət edilir. Ancaq bu cür yanaşma ortaya belə bir sual çıxara bilər: zərərin iki növünü-maddi və mənəvi zərəri doğuran eyni vahid hüquqazidd hərəkətdə təqsirin dərəcəsi zərərin ayrılıqda götürülmüş hər iki növünə münasibətdə ayrılıqda, yoxsa bütövlükdə hüquqazidd hərəkətə və mənfi nəticələrin meydana çıxmasının mümkünlüyünə münasibətdəmi müəyyən olunmalıdır? Qeyd olunan problemin həllini belə izah edə bilərik ki, əgər maddi ziyan vurulan zaman onun xarakterini qabaqcadan müəyyənləşdirmək mümkündürsə, mənəvi zərər vurulduğu hallarda iztirabların dərəcəsini qabaqcadan görmək və müəyyənləşdirmək çətin və demək olar ki, qeyri-mümkündür. Mənəvi zərərin vurulması halında kompensasiyasının ödənilməsi hüququnun meydana çıxması üçün təqsirin olması kifayət edir. Onu zərərvuran şəxsin, ümumilikdə, zərərin meydana çıxacağını görə bilməməsindən deyil, görməli olduğundan çıxış edərək müəyyən etmək lazımdır. Fikrimcə, işin halları üzrə əhəmiyyətli olduğu hallarda, mənəvi zərərin vurulması ilə əlaqədar təqsirin dərəcəsini hüquqazidd hərəkətlərin nəticələri sırasında mənəvi zərərin də olduğu əmələ münasibətdə müəyyən etmək lazımdır. Bununla belə, mənəvi zərərə görə məsuliyyətin şərtləri ayrılıqda hüquqtətbiqedici fəaliyyətdə qiymətləndirilməlidir [3].

Bu zaman ikinci mühüm vəzifə həmin kateqoriya mülki işlər üzrə mülki prosessual hüquq münasibətləri vasitəsilə cavabdehin təqsirinin necə sübuta yetirilməsinin mümkün olmasıdır ki, bu məsələnin həll yollarını isə aşağıdakı kimi qeyd etmək olar.

Birincisi, cavabdehin əməli törətdiyi anda onu necə dərk etdiyini izah etməsidir. İşin bütün halları nəzərə alınmaqla yanaşı, konkret şəraitdə öz hərəkətlərini düzgün qiymətləndirmək imkanının müəyyən edilməsidir. İkincisi, zərərvuran şəxsin hüquqazidd hərəkətləri ilə zərərli nəticələr arasında səbəbli əlaqənin müəyyən olunmasıdır, yəni subyektiv cəhət hüquq pozuntusunun obyektiv cəhətinə uyğun olmalıdır. Sübutetmə prosesində məhz obyektiv xarakterli məlumatlar ən etibarlı məlumatlar hesab edilir. A.Piyuk məhkəmə təcrübəsindən çıxış edərək göstərir ki,bir çox hallarda, informasiyanın mövcud olmaması cinayət tərkibinin subyektiv cəhətinin mövcudluğu haqqında qənaətə gəlməyə imkan vermir. Həmin fikir mülki hüquq pozuntusuna da aid edilə bilər.

Mülki qanunvericilik heç də həmişə təqsiri hüquq pozuntusuna görə mütləq şərt kimi müəyyən etmir. Belə ki, Mülki Məcəllənin 1097.3-cü maddəsinə, əsasən, qanunla zərərvuran şəxsin təqsiri olmadıqda da zərərin əvəzinin ödənilməsi nəzərdə tutula bilər. Bu müddəaya əsasən qeyd etmək lazımdır ki, aşağıdakı hallarda məsuliyyət müəyyənləşdirilir: ətrafdakılar üçün yüksək təhlükə ilə əlaqəli fəaliyyəti nəticəsində zərər vurulduqda, zərər qanunsuz məhkum etmə, cinayət məsuliyyətinə qanunsuz cəlb etmə, qəti imkan tədbiri kimi həbsəalmanın və ya başqa yerə getməmək haqqında iltizamın qanunsuz tətbiqi, inzibati tənbehin qanunsuz verilməsi nəticəsində vurulduqda, zərər şərəf, ləyaqət və işgüzar nüfuzu ləkələyən məlumatların yayılması nəticəsində vurulduqda, heyvanın vurduğu zərərin əvəzinin ödənilməsi, binanın uçması nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi [4].

Vurulmuş real zərərə görə mülki qanunvericiliklə müəyyən olunmuş məsuliyyət, analogiya üzrə vurulan mənəvi zərərə görə məsuliyyətin şərti kimi tətbiq oluna bilər.

Zərərvuran şəxsin qanunvericiliklə müəyyən edilən təqsirin formasından asılı olmayan məsuliyyəti heç də onun maddi şəkildə olmaması kimi qəbul oluna bilməz. Əksinə onun mövcudluğu zərərvuran şəxsin vəzifə və yaxud digər vəziyyətindən törəyən təqsir öz hərəkətlərinə, yaxud hərəkətsizliyinə şüurlu münasibəti ilə xarakterizə edilir. Bu baxımdan, təqsirin mənəvi zərərin vurulmasının şərti kimi Mülki Məcəllənin 1101-ci maddəsində qeyd edilməsi məsələsi olduqca təqdirəlayiq hal hesab edilir.

Göstərilən maddənin bilavasitə mətnindən vurulan mənəvi zərərə görə məsuliyyətin qeyd olunmadığı görünür. Bununla yanaşı, bu maddə yalnız hərəkət və ya hərəkətsizliyin mülki hüquqi nəticələrilə əlaqədar olaraq nisbi müəyyən məzmuna malik olur. Odur ki, Mülki Məcəllənin 1101-ci maddəsinin təsiri mənəvi zərərin kompensasiyası üçün potensial imkanlar yaradır. Fikrimcə, belə bir nəticə öz təsdiqini həm də onda əks etdirir ki, qeyd edilən norma mənəvi zərərə görə kompensasiyanı mülki hüquqi təsirin üsullarından biri qismində müəyyən etmir və onun ayrı-ayrı növlərini konkretləşdirmir.

Başqa bir məsələ isə təqsirin formasından asılı olmayaraq, tibb və əczaxana müəssisələrinin işçilərinin mülki hüquqi məsuliyyətinin müəyyən edilməsi ilə əlaqəlidir. Belə ki, 26 iyun 1997-ci il tarixli "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 57-ci maddəsinə, əsasən, vətəndaşların sağlamlığına zərər vurulduqda təqsirkar şəxslər qanunvericilikdə müəyyən olunmuş qaydada və həcmdə ziyan ödəməyə borcludurlar, həmin qanunun 59-cu maddəsinə, əsasən, tibb və əczaxana müəssisələrinin işçiləri üzərlərinə qoyulan vəzifələri lazımi şəkildə icra etməmələrinə görə qanunda nəzərdə tutulmuş formada məsuliyyət daşıyırlar [5].

İlk əvvəl qeyd etmək istəyirəm ki, elmi ədəbiyyatlarda hər nə qədər mənəvi zərərə görə kompensasiyanın miqdarının müəyyən olunması haqqında müxtəlif fikirlər, nəzəriyyələr irəli sürülsə də, bütün bu fikirlər mənəvi zərərə görə kompensasiyanın tam və dəqiq miqdarını müəyyən etmək üçün imkan vermir. Bu fikirlər və naziyyələr sadəcə olaraq mənəvi zərərə görə kompensasiyanın miqdarının minimum və maksimum sərhədlərini müəyyənləşdirməyə şərait yaradır. Lakin mənəvi zərərə görə kompensasiyanın miqdarı hakim tərəfindən hər bir hadisədə işin bütün halları araşdırılaraq təyin edilir. Hakim tərəfindən mənəvi zərərə görə kompensasiya müəyyən olunarkən bəzi çətinliklərlə qarşılaşır. Maddi zərərin müəyyən olunmasında əsas götürülən obyektiv və müsbət hadisələrdən fərqli olaraq, mənəvi zərərin müəyyən olunmasında subyektiv və hissi ünsürlərlə qərar qəbuletmək lazım gəldiyindən mühüm götürülməli, eyni zamanda məhkəmə təcrübəsi baxımından nəzərə alınmalı olan ümumi ünsürlərin müəyyən olunması vacibdir. Bu ünsürləri iztirab və sarsıntının ağırlıq dərəcəsi, zərərçəkənlə əlaqəli meyarlar və təqsirkarla əlaqəli meyarlar olmaq surətilə məqaləmizdə 3 başlıq altında qruplaşdırdım. Zərər, zərərçəkənin hiss etdiyi fiziki və yaxud psixoloji ağrı formasında meydanaçıxdığına görə təzminat bu ağrının dərəcəsinə mütənasib formada olmalıdır. Ağrının şiddəti zərərin ağırlığının müəyyən olunmasında diqqətə alınsa da, zərərin ağırlığı obyektiv faktorlara görə qiymətləndirilir. Belə obyektiv faktorlara törədilən hüquqazidd əməlin növünü, ölçüsünü, şiddətini, davam etdiyi müddəti, zərərçəkən şəxsdə mənfi fiziki və psixoloji təsirini nümunə göstərmək olar. Zərərin ağırlığının çox olması təzminat miqdarının yüksək olmasını, zərərin ağırlığının az olması isə təzminat miqdarının aşağı olmasını şərtləndirir. Məsələn, qüsurlu əməliyyat nəticəsində ölən bir şəxsin ailəsinin çəkdiyi iztirabla, çox faciəvi bir şəkildə ölən bir şəxsin ailəsinin yaşayacağı iztirab arasında böyük bir fərq vardır. Bunun kimi, bir şəxsin avtomobil qəzasında yaralanaraq bir müddət xəstəxanada qalması səbəbilə məruz qaldığı mənəvi zərərin, təhqir olunması səbəbilə başqa bir şəxsə dəyən mənəvi zərər qədər ağır olmadığını obyektiv faktorları nəzərəalaraq demək olar.Lakin Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2008-ci il 3 noyabr tarixli "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" qərarında iztirab vəsarsıntının ağırlıq dərəcəsininin mənəvi zərərin ödənilməsi tələbinin rədd edilməsi üçün əsas olmadığı qeyd edilmişdir. Daha sonra verəcəyimiz izahatlar zamanı bu mövqenin düzgün olmadığını görmək mümkün olacaq [6].

Şəxsin indiki halda içində olduğu fiziki və psixoloji neqativ vəziyyətin gələcəkdə şəxsə hansı mənfi fiziki və psixoloji təsirlər göstərəcəyi də mənəvi təzminatı müəyyənləşdirərkən nəzərəalınır. Beləliklə, mənəvi zərərə məruz qalan,lakin onun təsirini hiss və yaxud dərk etməyən azyaşlı uşaq, koma vəziyətində olan xəstə və yaxud anlaqsız vəziyyətdə olan şəxslər bu səbəbdən daha az miqdarda təzminat almaqla kifayətlənmək məcburiyyətində qalmırlar. Hətta sağ doğulması şərtilə ana bətnindəki dölün müəyyən miqdarda mənəvi təzminat tələb etmək hüququnun olduğunu söyləmək mümkün olur. İsveçrə Federal Məhkəməsinin mənəvi təzminatın miqdarının çox aşağı olmaması barədə belə bir qərarı vardır: "təzminatın ədalətə uyğun olması vacibdir. Bu səbəbdən mənəvi təzminatın miqdarı iddiaçının məruz qaldığı mənəvi zərərin son həddi ilə mütənasib olmalıdır. Xüsusilə, çox aşağı olmamalıdır" [7].

Təzminatın miqdarının çox aşağı olmaması vacib olduğu kimi, miqdarın çox yüksək olmaması da nəzərə alınmalıdır. Əks təqdirdə zərərçəkən şəxs\ çox şişirdilmiş bir məbləğin verilməsi şəxsdə fəlakəti arzulamaq kimi bir vəziyyət yaratmaqla yanaşı, eyni zamanda haqsız qazanc əldə etməsinə də səbəb olacaqdır.

Mənəvi təzminatın miqdarının müəyyən olunmasında əsas götürülən digər meyar dövriyyədəki pulun alıcılıq qabiliyyətidir. Hakimin təzminata qərar verdiyi tarixdəki pulun alıcılıq qabiliyyətini əsas götürərək təzminatın miqdarının çox aşağı və yaxud yuxarı olmasını nəzər alması vacib şərtlərdəndir. Zərərçəkən şəxsdə iztirab və ağrının mövcud olmadığı və yaxud zərərçəkmiş şəxsin təqsirkarı bağışlayaraq barışıq əldə etdiyi halda mənəvi təzminat ödənilmir. İztirab və sarsıntının ağırlıq dərəcəsinə təsir göstərən faktorlardan biri də ölən və ya cismani zərərə məruz qalanın yaxınlarının mənəvi təzminat tələb etmələri halında onların zərərçəkmiş şəxslə qanbağı, qohumluq dərəcəsi vəşəxsi münasibətlərinin xarakteridir. Təbiidir ki, ölənin yaxınlarına ödənəcək mənəvi təzminatın miqdarı cismani zərərə məruz qalanın yaxınlarına ödənilən miqdardan çox miqdarda olmalıdır. Yaxınlara ödəniləcək mənəvi təzminatın miqdarında qanbağı və qohumluq əlaqəsinin dərəcəsi qədər bunlardan müstəqil olaraq mövcud olan şəxsi münasibətlərin xarakteri də mühüm əhəmiyyət kəsb edir. Qanbağı və qohumluq əlaqəsinin dərəcəsi nə olursa olsun, bu şəxslər arasında münasibətlərin qənaətbəxş olmaması halında mənəvi təzminat tələbi rədd olunabilər. Məsələn, ölən şəxslə çox yaxşı münasibəti olan və daimi şəkildə onun yanında qalan əmisi oğluna ödəniləcək mənəvi təzminatın miqdarı, münasibətləri pis olan və uzun zaman ərzində atasını görməyən, onunla maraqlanmayan oğula ödəniləcək təzminat miqdarından çox olacaqdır. Ölən və ya cismani zərərə məruz qalan şəxsin yaxınlarına ödənilən mənəvi təzminatın miqdarı müəyyən olunarkən aşağıdakılar nəzərə alınmalıdır:

- Ərin və yaxud arvadın təzminat tələbində evlilik həyatının müddəti, ərlə arvad arasındakı yaxınlıq, vəfat edənin ölməzdən əvvəlki sağlamlıq vəziyyəti və həyatda qalan həyat yoldaşının yenidən evlənməsi ehtimalı nəzərə alınacaqdır.
- Uşaqların xeyrinə mənəvi təzminata qərar verərkən uşağın yaşı, fiziki və psixi sağlamlığı, uşaq evində qalıb-qalmayacağı əhəmiyyət kəsb edir. Birdən çox uşaq olarsa, xüsusi və tələb olunan səbəblər olmadığı təqdirdə onlara fərqli təzminat müəyyən edilmir.
- Ana və atanın mənəvi təzminat istəməsi halında da yuxarıda göstərilənlər eyni qaydada nəzərə alınır. Prinsip etibarilə ana və ataya eyni miqdarda mənəvi təzminat müəyyənləşdirilir. Lakin onlardan yalnız biri ilə, məsələn anası ilə birlikdə yaşayan uşağın ölməsi və yaxud cismani zərərə məruz qalması halında ananın xeyrinə fərqli bir təzminat miqdarı müəyyən oluna bilər [8].

Maddi zərərin kompensasiyasında zərərçəkən şəxsin şəxsiyyəti zərərin hesablanmasına təsir etməsə də, mənəvi zərərin müəyyən olunmasında əsas meyar hesab olunur. Zərərçəkən şəxslə

əlaqəli meyarları hissetmə qabiliyyəti, bədən quruluşu və dözümlülüyü, yaşı və cinsiyyəti, işgüzar nüfuzu və sosial vəziyyəti, həyat tərzi və vərdişləri, iqtisadi vəziyyəti və birgə məsuliyyət kimi qruplaşdıra bilərik. Cismani zərər anlayışına psixi pozuntu, əsəb pozuntusu vəya xəstəliyi və s. kimi halların aidedildiyi qəbul edilmişdir. Hər hansı şəxsin cismani zərərə məruz qalması nəticəsində onun çox yaxınlarından birinin də eyni əməl səbəbindən hüquqla qorunan sağlamlığı ağır formada pozulmuşsa, onlar da qanun çərçivəsində mənəvi təzminat tələb edəbilərlər. Bu halda yaxınların zərərləri ilə hüquqazidd əməl arasında uyğun səbəbli əlaqə olması və onların zərərlərinin qanun çərçivəsində qorunması mühüm şərtdir [9].

Mənəvi zərərin maddi ünsürlərindən biri ağrı və iztirab olduğundan, psixoloji vəziyyətin müəyyən olunmasında zərərçəkən şəxsin hissetmə qabiliyyəti mühüm əhəmiyyət kəsb edir. Nəticə etibarilə ağrı və iztirab nə qədər dərindən hiss olunursa, mənəvi təzminatın miqdarı da bir o qədər yüksək müəyyən edilməlidir. Elmi ədəbiyyatlarda qeyd edilən hissetmə qabiliyyəti haqqında qəbul edilən nəzəriyyə belədir ki, “Zərərçəkənin hissetmə qabiliyyəti (receptivite) - ifadə edilməsinə və həssaslığına görə xarici hadisələrdən az və ya çox dərəcədə təsirlənmə qabiliyyətini ehtiva edən bu ünsür, xüsusi ilə, mənəvi təzminatın müəyyən olunmasında əhəmiyyətlidir. Bu ünsürü amerikan və ingilis məhkəmələri xüsusi olaraq nəzərə almaqda, fransız məhkəmələri mövqesiz qalmaqda, İsveçrə Federal Məhkəməsi isə hərtərəfli qaydada mənimsəməkdədir. Hakim əmələ gələn zərəri tam olaraq müəyyən edə bilmək üçün zərərin zərərçəkən tərəfindən hansı dərəcəyə qədər hissedildiyini araşdırır vətəzminatı buna görə müəyyən edir” [10].

Bu ünsür haqqında Türkiyə Ali Məhkəməsinin bir qərarında belə deyilir: “Mənəvi təzminatın müəyyən edilməsində iddiaçının vəziyyəti xüsusi əhəmiyyətə malikdir. Məhkəmə düzgün nəticəyə gəlmək üçün iddiaçının sosial,iqtisadi və ailə şərtləri qədər onun hissetmə qabiliyyətini də araşdırmalıdır. Çünki iddiaçının hadisə nəticəsində hiss etdiyi ağrı və iztirabın dərəcəsi yalnız bu yolla müəyyən edilə bilər” [11].

Hissetmə qabiliyyətinə malik olmayanların mənəvi təzminat tələb etmək hüququnun olmadığını söyləmək düzgün hesab edilməz. Bu zaman hakim insanlarda ortaq hissetmə ölçüsünü müəyyənləşdirərək buna görə qərar verir. Bununla yanaşı hakim hissetmə qabiliyyətini yalnız həmin andakı vəziyyətə görə deyil, eyni zamanda gələcəkdəki vəziyyətə görə də nəzərə almalıdır. Qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, hadisə anında anlaqsız olan şəxsin hissetmə qabiliyyəti olmasa da, gələcəkdə sağalması ehtimalı varsa, hadisə səbəbilə gələcəkdə hiss edəcəyi iztirab, ağrı şəxsə mənəvi təzminat tələb etmək imkanı yaradır.

Şəxsin bədən quruluşu və dözümlülüyü onun yaşı və cinsiyyətinə uyğun formada dəyərləndirilir. Ümumi götürüldükdə isə gənc şəxslər fiziki ağrıya qarşı uşaq və qocalara nisbətən daha dözümlü olurlar, lakin psixoloji problemləri uşaq vəyaşlı şəxslər gənclərə nisbətən daha asan dəf edə bilirlər. Bədən quruluşundakı anormallıq və yaxud şikəstlik kimi vəziyyətlər zərərin əmələ gəlməsinə təsir göstəriblərsə, mənəvi təzminatın miqdarı buna uyğun nisbətdə azaldılır. Lakin əksinə, məsələn bir gözü kor olan şəxsin digər gözünün də kor olması, hər iki gözü görən birisi ilə müqayisədə ona daha çox mənəvi təzminat istəmək haqqı verir.

Fiziki ağrıya dözümlülükdən əlavə zərərçəkənin yaşı və cinsiyyəti silinməz, qalıcı fiziki zərərlərə məruz qaldığı hallarda mühüm əhəmiyyət kəsb edir. Misal olaraq, bədənin görünən bir yerində qalıcı fiziki zərər kişilərlə müqayisədəqadınlarda daha çox kədərə yol açar. O cümlədən, həyatda qalma müddəti nəzərə alınarsa, silinməz fiziki zərərlər baxımından yaşlı şəxslərə nisbətən gənclərə daha çox mənəvi təzminat ödənməlidir

Mənəvi təzminatın miqdarının müəyyən olunmasında zərərçəkən şəxsin işgüzar nüfuzu və sosial vəziyyəti çox mühüm amillərdən hesab olunur. Bu meyarla bağlı hüquq alimləri müxtəlif fikirlər irəli sürürlər. Bir qrup alimlər tərəfindən hesab olunur ki, şəxsin şərəf və ləyaqətinin alçaldılmasına yönəlmiş hərəkətlər olduğu zaman bu hərəkətlər şəxsin işgüzar nüfuzundan və sosial statusundan asılı olaraq ona fərqli təsirlər göstərir. Mənəvi zərər psixoloji vəziyyətlə bağlı olduğuna görə eyni bir hadisə ayrı-ayrı şəxslərə müxtəlif cür təsir edə bilər. Məsələn, kiçik bir mühitdə yaşayan və çox az insan tərəfindən tanınan şəxsin əleyhinə qəzetlərdə və yaxud kütləvi informasiya vasitələrində yayılan xəbərlə bir millət vəkili, çox məşhur həkim və yaxud universitet professorunun əleyhinə çıxarılan xəbərin əmələ gətirəcəyi zərər arasında həm həcm, həm də məzmun etibarilə fərqliliklər olacaqdır. Buna əks olaraq digər qrup alimlər isə şəxsin şərəf və ləyaqətinin cəmiyyətdə tutduğu mövqeyə görə dəyişməsinin ədalət prinsipinə uyğun olmadığını və şəxsiyyət hüquqlarının obyektiv meyarlara əsaslanaraq dəyərləndirilməsinin vacib olduğunu söyləyirlər. Şəxslərin işgüzar nüfuzuna və sosial statusuna xələl gətirə biləcək maddi zərərlərə misal olaraq bir futbolçunun ayağının, bir pianoçunun barmaqlarının qırılmasını, bir fotomodelin üzündə silinməz izin qalmasını göstərirlər. Psixoloji vəziyyətlə əlaqədar olaraq isə belə hesab edirlər ki, zərərin sosial mövqeyə təsirini zərərçəkənin işgüzar nüfuzunun azalıb azalmadığına görə müəyyən etmək lazımdır.

Nəticə olaraq demək olar ki, ikinci nəzəriyyənin birincini tənqid etməsi haqsız və yersizdir. Çünki ikinci nəzəriyyə tərəfdarı olan şəxslər öz mövqelərində işgüzar nüfuzdan bəhs etməklə dolayı yolla birinci nəzəriyyə tərəfdarları ilə eyni fikirləri bölüşürlər. Birinci nəzəriyyə tərəfdarlarının məsələyə baxış nöqtəsi şəxsin cəmiyyətdəki nüfuzudur. Bu vəziyyətdə birinci nəzəriyyəni yanlış hesab etmək əvəzinə ancaq məsələyə yalnız psixoloji mövqedən yanaşdığı üçün əskik olmasını demək daha doğru olardı. Bizim mövqeyimizə görə isə mənəvi təzminatın miqdarının müəyyən olunması zamanı şəxsin işgüzar nüfuzu və sosial statusu hakim tərəfindən bilavasitə nəzərə alınmalıdır.

Əmələ gələn mənəvi zərərlərdə zərərin şəxslərin həyat tərzini dəyişib dəyişmədiyi nəzərə alınır. Məsələn, anası xəstə olan birinin müntəzəm olaraq anasını avtomobillə xəstəxanaya aparması vacib ikən onun avtomobili idarə edə bilməyəcək vəziyyətə düşməsi və ya dininə çox bağlı olan bir kəsin ibadətlərini həyata keçirə bilməyəcək vəziyyətə düşməsini aid etmək olar. Hər iki hal mənəvi təzminatın miqdarının müəyyən olunmasında mütləq nəzərə alınmalıdır.

Mənəvi təzminata təsir edən ünsürlərdən biri kimi zərərçəkənin iqtisadi vəziyyəti həm məhkəmə təcrübəsi, həm də hüquq ədəbiyyatları tərəfindən birmənalı qəbul olunsa da bununla əlaqəli müxtəlif fikirlərin mövcudluğu istisna edilmir. Belə ki:

- Bir çox alim mənəvi zərərin kompensasiyasının zərərçəkənin əmlakı ilə düz mütənasib olmasını mühüm hesab edir. Çünki hər kəsin qane olma səviyyəsi eyni deyildir. Yoxsul şəxsə çox gələn bir məbləğ varlı birinə az gələ bilər və bu da qaneedici olmaz. Məsələn, iztirabını bir miqdar spirtli içki qəbul edərək aradan qaldırmağı bacaran şəxslə sarsıntısını yalnız böyük məbləğlərdə kompensasiya vasitəsilə aradan qaldıra biləcək şəxs arasında fərqlilikləri nəzərə almaq lazımdır.
- Bəzi alimlər tərəfindən iqtisadi baxımdan zəif olan birinin zərərdən sonra həyatına eyni şəkildə davam etməkdə çətinlik çəkəcəyi qəbul edilərək bu ünsürün təzminatı artıran bir ünsür kimi qiymətləndirilməli olduğu ortaya atılır.
- Digər bir fikir tərəfdarları isə zərərçəkənin iqtisadi vəziyyətinin yalnız onun hadisədən əvvəlki əmlak vəziyyətinə və gəlirlərinə görə deyil, eyni zamanda hadisədən sonra əldə etdiyi

müavinətlər, təminatlar və digər sosial sığorta ödənişlərinə uyğun olaraq nəzərə alınmalı olduğunu bildirirlər.

Nəticə olaraq demək olar ki, əgər mənəvi təzminatın ödənilməsində sırf zərərçəkən şəxsə stimul vermək mövqeyi əsas tutularsa, birinci nəzəriyyə baxımından sadəcə olaraq zərərin kompensasiyası mövqeyindən çıxış edilsə, o zaman ikinci və üçüncü fikirlər əsas götürüləcəkdir. Məncə isə bu ünsür varlı şəxsə daha çox mənəvi təzminata qərar verilməsi qismində deyil, eyni zamanda yoxsul şəxsə əsassız varlanmanın yolverilməzliyi prinsipi rəhbər tutularaq mənəvi təzminat müəyyən olunması kimi qiymətləndirilməlidir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 458-ci maddəsini əsas götürərək demək olar ki, zərərin əmələ gəlməsində təqsirkarla yanaşı zərərçəkənin də təqsiri olmuşdursa, təzminat miqdarında mütanasib olaraq azalma mövcud olacaqdır.

Aydınlaşdırılmalı olan əsas məsələ zərərin tərəflərdən hansının daha ağır təqsiri nəticəsində əmələ gəlməsidir. Bu zaman yalnız zərərçəkən şəxsin təqsiri deyil, həmçinin onun qanuni nümayəndəsinin, işçilərinin və digər məsul olduğu şəxslərin təqsirli hərəkətləri də birgə məsuliyyət halını yaradacaqdır. Əgər zərərçəkən şəxsin təqsiri baş vermiş zərərlə törədilən hüquqazidd əməl arasındakı uyğun səbəbli əlaqəni kəsirsə, mənəvi təzminat istənilə bilməz. Kəsmədiyi hallarda mənəvi təzminatın ödənilməsi haqqında qərar verilə bilər [12].

Mənəvi təzminatın miqdarının müəyyən olunmasında hüquqa zidd əməl törədənlə bağlı meyarlar zərərçəkənlə əlaqəli meyarlar qədər əhəmiyyət kəsb etməsə də, mənəvi təzminatın tam və ədalətli olması üçün onları da nəzərə almaq lazımdır. Bu meyarları təqsirkarın təqsirinin dərəcəsi, təqsirkarın sosial statusu və təqsirkarın iqtisadi vəziyyəti olaraq üç başlığa bölmək olar.

1. Təqsirkarın təqsir dərəcəsi
2. Təqsirkarın sosial statusu
3. Təqsirkarın iqtisadi vəziyyəti

Mənəvi təzminatın müəyyən olunmasında cəza nəzəriyyəsindən çıxış edən alimlər təqsirkarın təqsirinin dərəcəsini təzminatın miqdarının müəyyən olunmasında əhəmiyyətli ünsür kimi qiymətləndirirlər. Hər nə qədər məsələyə bu mövqedən yanaşılmasa da, təqsirkarın təqsirinin dərəcəsinin mənəvi təzminatın miqdarının müəyyən olunmasına təsiri vardır. Çünki ehtiyatsızlıqla zərərin əmələ gəlməsinə səbəb olan şəxslə həmin zərəri qəsdlə meydana gətirən şəxsə eyni miqdarda mənəvi təzminat müəyyən etmək ədalətsizliyə yol açır. Misal üçün əhli-kef olması səbəbilə nişanı pozan bir şəxslə nişanlı qızın gələcəyini məhv etmək, qızı çirkin böhtanlara məruz qoymaq, kin və ya düşmənçilik kimi niyyətlərlə nişanı pozan şəxs arasında mənəvi təzminat miqdarında, az da olsa, bir fərq qoyulmalıdır.

Təqsirli məsuliyyət hallarında zərərvuranın təqsirinə diqqət yetirilsə də, təqsirsiz və ya obyektiv məsuliyyət hallarında diqqət yetirilməli əsas məsələ obyektiv məsuliyyət daşıyan şəxsin təqsir dərəcəsidir. Ağır fiziki zərər hallarında mənəvi təzminat müəyyən edilərkən təqsirkarın təqsir dərəcəsinin təzminatın müəyyən edilməsinə təsiri minimuma endirilməlidir, yəni təzminat miqdarı çox aşağı salınmamalıdır. Zərərin əmələ gəlməsində təqsirkarla yanaşı onun təmsilçilərinin də təqsiri olarsa, o zaman bu hallar aydınlaşdırılır.

Zərərçəkənin iztirab və sarsıntıya məruz qalmasında bu zərəri əmələ gətirənin şəxsiyyəti əhəmiyyət kəsb edən hallardan biridir. Zərəri əmələ gətirən təqsirkarın sosial nüfuzu nə qədər yüksək olarsa, bu zərərdən duyulan iztirab o nisbətdə artacaqdır. Məsələn, yolu kifayət qədər sürətli keçməməsi səbəbilə yük maşını sürücüsü tərəfindən təhqir edilən bir şəxsdə bu hadisə mənəvi zərər

əmələ gətirməyə bilərsə də, eyni təhqirin sosial nüfuzu yüksək biri tərəfindən hər hansı konfransda deyilməsi və ya məqalədə dərc edilməsi böyük bir mənəvi zərərə səbəb ola bilər. Və yaxud sosial mövqe baxımından çox yüksəkdə olan birinin sadə vətəndaşlar tərəfindən təhqir olunması həmin şəxsdə zərər əmələgətirməsə də, sosial mövqeyi yüksək olan birinin mövqe baxımından özündən aşağı şəxsləri təhqir etməsi halında həmin şəxslərdə mənəvi zərər meydana gələcəkdir. Bu səbəbdən təzminatın miqdarının müəyyən edilməsi zamanı hakim təqsirkarın sosial statusunu və cəmiyyətdə tutduğu mövqeyi nəzərə alaraq təzminata qərar verməlidir.

Təqsirkarın iqtisadi vəziyyəti ilk növbədə onun əleyhində veriləcək təzminatın hansı formada olmasını müəyyən edir. Çünki iqtisadi vəziyyəti qənaətbəxş olan təqsirkara pul formasında kompensasiya cəzası vermək yerinə onu zərərçəkmişdən üzr istəməsinə məcbur etmək daha effektli olacaqdır.

Təqsirkarın iqtisadi vəziyyəti təzminatın miqdarına birbaşa olaraq təsir etmir. Lakin bu zaman təqsirkarın təzminatı ödəyərkən çətin vəziyyətdə qalıb qalmayacağı əhəmiyyət kəsb edir. Mənəvi təzminatın miqdarı təqsirkarın iqtisadi cəhətdən məhvinə səbəb olmamalıdır. Bu səbəblə aparılan araşdırmalarda təqsirkarın fəaliyyət qabiliyyətli olub-olmaması, ailə şəraiti, sığorta və digər təminatlarının olub-olmaması dəyərləndirilməlidir. Birdən çox zərərçəkənin olması halında çıxarılan təzminat qərarı təqsirkarı iqtisadi cəhətdən çıxılmaz vəziyyətə salmamalıdır. Bu baxımdan birdən çox zərərçəkən olarsa, o zaman müəyyən edilmiş təzminat miqdarı zərərçəkənlər arasında onların yaşadığı iztirablar nisbətində bölüşdürüləcəkdir.

Mənəvi təzminatın miqdarı maddi təzminatdakı kimi konkret meyarlarla ölçülə bilmədiyindən mənəvi təzminatın miqdarını müəyyən edərkən hakim hər şeydən əvvəl baş vermiş hadisəni çox dərindən analiz etməlidir. Çünki mənəvi təzminatın miqdarını təyin edən meyarlar hər hadisənin öz içində müxtəlif formada təzahür edir. Ədalətli və düzgün qərar verə bilmək üçünsə bu meyarların dəqiq araşdırılaraq müəyyənləşdirilməsi vacibdir. Hər hadisə baxımından müxtəlif meyarlar meydana çıxdığından dolayı bu məqaləmizdə sadəcə ümumi meyarlara toxunmaqla kifayətləndik. Məqalədə diqqət yetirildiyi üzrə mənəvi təzminatın miqdarının müəyyən edilməsi üçün nəzərə alınmalı olan meyarlar bir-birilə iç-içə keçmiş vəziyyətdədir. Bu meyarları kitab kimi üst-üstəyığaraq deyil, daha çox hər birini pazılın bir parçası kimi qiymətləndirib, əvvəlcəparçaların hamısını birləşdirmək, daha sonra isə bütöv şəkli görmək lazımdır.

Hakim "şəkli bütöv görə bildiyi" anda artıq ədalətli və düzgün qərar vermək üçün qarşısında heç bir maneə qalmayacaqdır. Son olaraq qeyd edək ki, hakimə qanunvericilik tərəfindən mənəvi təzminatın miqdarının müəyyən edilməsində çox geniş səlahiyyət verilmişdir. Hakimin bu səlahiyyətləri icra edərkən çox həssas davranmalı və zərərçəkənə haqlı olduğu, o cümlədən təqsirkara da haqsız olduğu ölçüdə, ədalətli iradə ortaya qoyaraq təzminat müəyyən etməsi məqsədə uyğundur [13].

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Konstitusiyası. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/897

2. Azərbaycan Respublikası Mülki Məcəlləsi. [Elektron resurs]. URL: URL:https://e-qanun.az/framework/1

3. Azərbaycan Respublikası Mülki Məcəlləsinin Kommentariyası. [Elektron resurs]. URL: http://ek.anl.az/lib/item?id=chamo:115136&theme=e-kataloq

4. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46947

5. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. [Elektron resurs]. URL: https://seymurhuseynov.home.blog/2019/12/23/cinay%C9%99t-m%C9%99c%C9%99ll%C9%99sinin-xususi-hiss%C9%99sinin-kommentariyasi-pdf/

6. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46945

7. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin Kommentariyası. [Elektron resurs]. URL: http://ek.anl.az/lib/item?id=chamo:115136&theme=e-kataloq

8. Azərbaycan Respublikası Ali Məhkəmənin Plenumu"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında " 3 noyabr 2008-ci il tarixli qərar. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/47303

9. 26 iyun 1997-ci il tarixli "Əhalinin sağlamlığının qorunması haqqında "qanununu. [Elektron resurs]. URL: https://its.gov.az/uploads/law/38/732555.pdf

10. İsveçrə Federal Məhkəməsinin qərarları. [Elektron resurs]. URL: https://its.gov.az/uploads/law/38/732555.pdf

11. Türkiyə Ali Məhkəməsinin qərarları. [Elektron resurs]. URL: https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.2709.pdf

12. Pınar Çetin. Manevi Tazminat Davasının Hukuki Niteliği ve Özellikle Tazminat Miktarının Belirlenmesi. [Elektron resurs]. URL: https://dergipark.org.tr/en/download/article-file/2277808

13. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. - Bakı: Hüquq ədəbiyyatı, 2003. – 552 s. [Elektron resurs]. URL: https://www.elibrary.az/docs/jurnal/jrn2017_215.pdf

**Гасымзаде И. И.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.28-40**
**УДК: 342.7**

## Основания и условия юридической ответственности за моральный вред

**Аннотация:** В статье проанализированы основания и условия юридической ответственности за моральный вред, отражающие возмещение морального вреда, что более актуально для правовой системы нашего государства, а также критерии определения компенсации морального вреда. Покупательная способность денег в обращении также упоминалась как один из факторов, влияющих на измерение моральной компенсации. При определении возмещения основное содержание статьи составляют объективный вес вреда, элементы, относящиеся к потерпевшему и виновнику.

Определение размера моральной компенсации имеет важное значение в случае материальной компенсации моральных ценностей. Поскольку не всегда возможно возместить моральный вред в точной форме, возмещением морального вреда в ряде случаев

♦**Гасымзаде Илькнур Илькин кызы** - магистрант кафедры «Право» Национальной академии авиации (Азербайджан). E-mail: ilknur.agayeva@bk.ru

является компенсация, выплачиваемая в материальной форме (в денежной форме). Предусматривается, что возмещение морального вреда может осуществляться не только в денежной форме, но и путем возложения на это лицо некоторых обязанностей (например, опровержения ложных сведений, наносящих вред чести, достоинству, деловой и общественной репутации, принесения извинений перед жертва).

**Ключевые слова:** вина; гражданская ответственность; физические или моральные страдания; чувство потерпевшего; компенсация; умысел и неосторожность.

## Библиография

1. Конституция Азербайджанской Республики [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/897 (на азерб. яз.)

2. Гражданский Кодекс Азербайджанской Республики [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/1(на азерб. яз.).

3. Комментарий к Гражданскому Кодексу Азербайджанской Республики. [Электронный ресурс]. URL: http://ek.anl.az/lib/item?id=chamo:115136&theme= e-kataloq (на азерб. яз.).

4. Уголовный Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/46947 (на азерб. яз.).

5. Комментарий к Уголовному Кодексу Азербайджанской Республики.[Электронный ресурс]. URL: https://seymurhuseynov.home.blog/2019/12/23/cinay%C9%99t-m%C9%99c%C9%99ll%C9%99sinin-xususi-hiss%C9%99sinin-kommentariyasi-pdf/(наазерб. яз.).

6. Гражданский процессуальный кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/46945 (на азерб. яз.).

7. Комментарий к Гражданскому процессуальному кодексу Азербайджанской Республики. [Электронный ресурс]. URL: http://ek.anl.az/lib/item?id=chamo:115136&theme =e-kataloq (наазерб. яз.).

8. Решение Пленума Верховного Суда Азербайджанской Республики «Об опыте применения судами законодательства о возмещении морального вреда» от 3 ноября 2008 года. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/47303 (на азерб. яз.).

9. Закон «Об охране здоровья населения» от 26 июня 1997 г. [Электронный ресурс]. URL: https://its.gov.az/uploads/law/38/732555.pdf (на азерб. яз.).

10. Решения Федерального суда Швейцарии. [Электронный ресурс]. URL: https://its.gov.az/uploads/law/38/732555.pdf (на азерб. яз.)

11. Решения Верховного суда Турции. [Электронный ресурс]. URL: https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.2709.pdf (на турец. яз.).

12. Пинар Четин. Правовые особенности дела о моральной компенсации и определение размера компенсации в частности. [Электронный ресурс]. URL: https://dergipark.org.tr/en/download/article-file/2277808 (на турец. яз.).

13. Джафаров И.М. Толкование Конституции Азербайджанской Республики. - Баку: Юридическая литература, 2003. – 552 с. [Электронный ресурс]. URL: https://www.elibrary.az/docs/jurnal/jrn2017_215.pdf (на азерб. яз.).